

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 101(23.988)

2 iyun 2022-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Bakı Ekspo Mərkəzində Bakı Enerji Həftəsi çərçivəsində 27-ci Beynəlxalq Xəzər Neft və Qaz Sərgisinin rəsmi açılış mərasimi keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib. Dövlətimizin başçısı açılış mərasimində çıxış edərək artıq 27-ci dəfədir keçirilən Xəzər Neft və Qaz Sərgi və Konfransının əhəmiyyətindən danışıb. Çıxışda Azərbaycandan Gürcüstanın Qara dənizdəki Supsa limanına gedən birinci neft boru kəmərinin, Bakı-Tbilisi-Ərzurum qaz boru kəmərinin istismara verilməsinin əhəmiyyətindən bəhs olunub. Qeyd edilib ki, Cənub Qaz Dəhlizinin 2020-ci ilin sonuncu günündə uğurla tamamlanması ümumi iradəmizi, komanda daxilində işləmək və böyük uğurlar qazanmaq bacarığımızı nümayiş etdirir.

Dövlətimizin başçısı vurğulayıb ki, ənənəvi Xəzər Neft-Qaz Sərgisi və Konfransı, həmçinin Bakı Enerji Həftəsi çərçivəsində bütün bu vacib məsələlər müzakirə ediləcəkdir. Çıxışda Zəngəzur dəhlizinin yalnız yüklər üçün deyil, elektrik enerjisi üçün də mühüm ixrac marşrutu ola biləcəyindən bəhs edilib. Sonda dövlətimizin başçısı sərginin xatirə kitabını imzalayıb.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 1-də Serbiya Baş nazirinin müavini, mədən və energetika naziri Zorana Mixayloviçi qəbul edib.




## “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının 1-ci Sərhəd Komendantlığının xidməti-yaşayış kompleksi istifadəyə verilib

İyunun 1-də – Milli Qurtuluş Günü ərəfəsində “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının 1-ci Sərhəd Komendantlığının xidməti-yaşayış kompleksi istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak etmişdir.



“Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının komandiri, general-leytenant Niyaməddin Tağıyev Ali Məclisin Sədrinə raport vermişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov sərhədçiləri salamlamış, Azərbaycan xalqının tarixində mühüm əhəmiyyətə malik olan əlamətdar və tarixi gün – Milli Qurtuluş Günü ərəfəsində “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının 1-ci Sərhəd Komendantlığının xidməti-yaşayış kompleksinin istifadəyə verilməsi münasibətilə tədbir iştirakçılarını, diviziyanın bütün şəxsi heyətini və sərhədçi ailələrini təbrik edərək demişdir: Bu il həm də “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının yaranmasının 30-cu ildönümü tamam olur. *“Azərbaycanın dövlət sərhədi Azərbaycanın müstəqilliyini, suverenliyini nümayiş etdirən amildir”,* – deyən ümummilli liderimiz Heydər Əliyevin 1990-1993-cü illərdə Naxçıvanda həyata keçirdiyi müstəqil dövlət quruculuğu tədbirləri sırasında sərhəd qoşunlarının formalaşması və inkişafı mühüm yer tutur. Həmin dövrdə Sovetlər Birliyinin muxtar respublikadakı sərhədlərində 41-ci sərhəd dəstəsi dayanırdı. Sərhədin Ordubad və Sədərəkdən keçən hissəsinin mühafizəsini aparan sərhəd zastavaları isə Ermənistandakı sərhəd dəstəsinin tabeliyində idi. Ulu öndərin təşəbbüsü ilə həmin zastavalar Naxçıvandakı 41-ci sərhəd dəstəsinə birləşdirildi. Bunun ardınca 41-ci sərhəd dəstəsi də bütün əmlakı və silah-sursatı ilə birlikdə Naxçıvan Muxtar Respublikasının tabeliyinə verildi. 1992-ci il avqustun 22-də Naxçıvandakı sərhəd dəstəsində üçrəngli bayrağımız qaldırıldı və bununla da Azərbaycanın ilk milli sərhəd dəstəsinin təməli qoyuldu. Ümummilli liderimiz Heydər Əliyev bu barədə deyirdi: ***“Biz keçmiş Sovetlər İttifaqının, sonra isə Rusiyanın 41-ci Sərhəd qoşunları hissəsinin buradan tamamilə çıxıb getməsinə nail olduq və Azərbaycanda ilk dəfə olaraq milli sərhəd qoşunlarının 1-ci dəstəsi yaradıldı. Bütün bunlar tarixi hadisələrdir və nəinki bugünkü, hətta gələcək nəsillər tərəfindən layiqincə qiymətləndirilməlidir”.***



Ali Məclisin Sədri demişdir: Milli Qurtuluşun bəhrələrindən biri də güclü və qüdrətli Azərbaycan Ordusudur. Ulu öndərin rəhbərliyi ilə Naxçıvandan başlanan ordu quruculuğu işlərinin davamı olaraq Azərbaycan Silahlı Qüvvələri tam formalaşdırılmış, bu tədbirlər sırasında Naxçıvanda dövlət sərhədlərimizin mühafizəsi işi də diqqətdə saxlanılmışdır. Ölkə Prezidenti cənab İlham Əliyev də ümummilli liderin yolunu davam etdirərək ordu quruculuğuna və sərhədlərimizin etibarlı mühafizəsinə diqqəti artırmış, dövlət başçısının müvafiq fərmanları ilə 2004-cü ildə Naxçıvan Sərhəd Dəstəsinin bazasında “Naxçıvan” Sərhəd Diviziyası yaradılmış, 2015-ci ildə Sərhəd Diviziyası “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasına çevrilmişdir. Muxtar respublikada sərhədlərimizin mühafizəsi, bu sahədə həyata keçirilən quruculuq işləri yeni mərhələdədir. Ötən dövrdə “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının mərkəzi qərargahı yenidən qurulmuş, 14 sərhəd zastavası, eləcə də 2 sərhəd komendantlığı üçün yeni yaşayış və xidmət kompleksləri istifadəyə verilmiş, maddi-texniki baza gücləndirilmiş, sərhədçi ailələrinin məişət şəraiti yaxşılaşdırılmışdır.





Ali Məclisin Sədri bu işlərin həyata keçirilməsində əməyi və xidməti olanlara təşəkkür edərək demişdir ki, bütün bunlar Azərbaycanda ordu quruculuğu sahəsində görülən işlərin nəticəsidir.

“Sərhəd hər bir ölkənin müstəqilliyini təsdiq edən amil, sərhədlərin etibarlı mühafizəsi

Ardı 2-ci səhifədə





isə inkişaf və sabitlik deməkdir”, – deyən Ali Məclisin Sədri bildirmişdir ki, ona görə də “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının şəxsi heyəti Azərbaycan Respublikasının muxtar respublikadakı 234 kilometrlik dövlət sərhədini bundan sonra da etibarlı mühafizə etməli, hərbi intizama ciddi əməl olunmalı,



sərhəd nəzarəti və xidməti fəaliyyət günün tələbləri səviyyəsində qurulmalı, əməliyyat şəraiti daim nəzarətdə saxlanılmalıdır.

Ali Məclisin Sədri bu vəzifələrin icrasında “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının şəxsi heyətinə uğurlar arzulamış, onları qarşıdan gələn Milli Qurtuluş Günü münasibətilə təbrik etmiş, çıxışını ölkə Prezidenti cənab İlham Əliyevin ***“Hər bir ölkənin təhlükəsizliyi onun sərhədlərindən başlayır. Biz elə etməliyik ki, sərhədlərimiz tam şəkildə qorunsun”*** fikirləri ilə tamamlamışdır.

“Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının komandiri, general-leytenant Niyaməddin Tağıyev çıxış edərək demişdir ki, diviziyanın maddi-texniki bazasının möhkəmləndirilməsi daim diqqət mərkəzində saxlanılır, hərbi qulluqçulara yüksək dövlət qayğısı göstərilir. Bu gün muxtar respublikada sərhədlərin mühafizəsi, bu sahədə həyata keçirilən quruculuq işləri yeni mərhələyə qədəm qoymuş, sərhədçilərin xidmət və məişət şəraiti əsaslı şəkildə yaxşılaşdırılmışdır. 1-ci Sərhəd Komendantlığı üçün yeni kompleksin istifadəyə verilməsi də bu sahədə görülən işlərin davamıdır. Niyaməddin Tağıyev 1-ci Sərhəd Komendantlığında yaradılan şəraitə görə şəxsi heyət adından Ali Məclisin Sədrinə minnətdarlıq etmiş, bundan sonra da sərhədlərimizin etibarlı mühafizəsi istiqamətində qüvvə və bacarıqlarını əsirgəməyəcəklərinə söz vermişdir.

Şəxsi heyət “Hamı bir nəfər, bir nəfər hamı üçün!” şüarını səsləndirmişdir.

Zabit İlkin Mehdiyev sərhədçilər adından minnətdarlıq edərək demişdir ki, “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının maddi-texniki bazası möhkəmləndirilib. Bu gün təqdimatı olan Şərur Sərhəd Komendantlığı da görülən işlərin və sərhədçilərə göstərilən qayğının bariz nümunəsidir. Əmin edirik ki, yaradılan şəraitdən səmərəli istifadə edərək bundan sonra da dövlət sərhədlərinin etibarlı mühafizəsini təmin edəcəyik.

Sonra Ali Məclisin Sədri yaradılan şəraitlə maraqlanmışdır.

Məlumat verilmişdir ki, 1-ci Sərhəd Komendantlığının xidməti ərazisi Şərur, Sədərək və Kəngərli rayonlarını əhatə edir. Tabeliyində 8 sərhəd zastavası vardır. Komendantlıqdakı 2 mərtəbəli qərargah binası, 96 yerlik əsgər yataqxanası, 136 yerlik yeməkxana, 18 mənzillik yaşayış binası, 2 nəzarət-buraxılış məntəqəsi, hamam-camaşırxana, qazanxana, əşya, tərəvəz, silah-sursat və ərzaq anbarları, avtomobillər üçün 9 saxlanc yeri və transformator yarımstansiyası yenidən qurulmuşdur. Qərargah



binasında müşavirə zalı, 10 iş otağı, arxiv və rabitə otaqları vardır. Zirzəmi ilə birlikdə 3 mərtəbədən ibarət olan əsgər yataqxanasında subay zabitlər üçün istirahət yeri, sinif, məişət, silah, rabitə, 5 iş otağı, 10 çarpayılıq tibb məntəqəsi və aptek yerləşir.

Ərazidə yeni sıra meydanı, futbol meydançası, idman şəhərciyi, ailələr və əsgərlərin asudə vaxtlarını səmərəli keçirmələri üçün istirahət və uşaq əyləncə yerləri yaradılmış, 200 abonentlik müasir avtomat telefon stansiyası və 22 sabit videokamera sistemi quraşdırılmışdır. Videokameraların görüntüləri mərkəzləşdirilmiş qaydada sərhəd komendantlığına və diviziyaya ötürülür, serverdə 2 ay müddətində saxlanır. 6 hektar ərazidə abadlaşma işləri aparılmış, müasir işıqlandırma sistemi qurulmuş, yaşıllıq salınmışdır.

Ali Məclisin Sədri sərhədçi ailələri ilə görüşərək demişdir: Bu gün 1-ci Sərhəd Komen-



dantlığının xidməti-yaşayış kompleksi istifadəyə verildi. Burada həm xidmətin düzgün təşkili, həm də rahat yaşayış üçün hərtərəfli şərait yaradılıb. Zabit o zaman öz xidmətini yaxşı yerinə yetirə bilir ki, onun ailəsi üçün lazımi şərait təmin olunur. İstifadəyə verilən xidmət kompleksində bütün bunlar nəzərə alınıb. Burada ailələr rahat yaşayacaq, onların həyat yoldaşları da dövlət sərhədində öz xidmətlərini layiqincə yerinə yetirəcəklər. Ərazidə uşaqların istirahəti üçün də lazımi şərait yaradılıb. Bir sözlə, bu gün sərhədçi ailələri, eyni zamanda şəxsi heyət üçün lazımi şəraitin olması xidmətin yaxşı təşkil olunacağına əminlik yaradır.

Ali Məclisin Sədri demişdir: Vaxtilə Sovet dövründə burada xüsusi hərbi hissə yerləşirdi. Lakin bugünkü xidmət və yaşayış şəraiti yox idi. Bu gün müasir xidmət və yaşayış kompleksinin sərhədçilərin və ailə üzvlərinin istifadəsinə verilməsi müstəqil dövlətimizin hərbi qulluqçulara və onların ailələrinə göstərdiyi diqqətin daha bir ifadəsidir. Muxtar respublikanın bütün hərbi hissələrində bu şərait yaradılmışdır. Ona görə də hər kəs öz vəzifəsini layiqincə yerinə yetirməli, uşaqlar təhsilli böyüdülməli, peşə vərdişlərinə yiyələnməlidirlər.

Ali Məclisin Sədri sərhədçi ailələrinə rahat həyat arzulamış, bütün muxtar respublika uşaqlarını 1 iyun – Uşaqları Beynəlxalq Müdafiə Günü münasibətilə təbrik etmişdir.

Sonra Ali Məclisin Sədri uşaqlara hədiyyələr təqdim etmişdir.

Ülviyyə Mehdiyeva sərhədçi ailələri adından çıxış edərək demişdir: “Vətən sərhəddən başlayır və sərhədçi olmaq şərəfli bir peşədir. Muxtar respublikada sərhədçi ailələrinin rahat yaşayışı üçün hər cür şərait yaradılmışdır. Bütün bunlar Ali Məclis Sədrinin sərhədçi ailələrinə göstərdiyi diqqət və qayğının bariz nümunəsidir. Bu gün, eyni zamanda 1 iyun – Uşaqları Beynəlxalq Müdafiə Günüdür. Sərhədçi ailələrinə və uşaqlara göstərilən diqqət və qayğıya görə minnətdarlıq edirik”.

Uşaqlar vətənpərvərlik ruhunda şeirlər söyləmişlər.

Sonra Ali Məclisin Sədri mənzillərdə yaradılan şəraitlə tanış olmuşdur. Bildirilmişdir ki, yaşayış binasındakı mənzillərdən 8-i üçotaqlı, 10-u isə ikiotaqlıdır.

Ali Məclisin Sədri qurulanların qorunması, nizam-intizama diqqət yetirilməsi və xidmətin təşkili barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvanda “Bir uşaq-bir top” festivalı keçirilib



*1 iyun – Uşaqları Beynəlxalq Müdafiə Günü və “Araz-Naxçıvan” Peşəkar Futbol Klubunun yaradılmasının 55-ci ildönümü münasibətilə “Bir uşaq-bir top” festivalı keçirilib.*

Tədbir iki hissədən ibarət olub. Birinci hissədə gənc rəssamların futbol haqqında kompozisiyaları, Face art, Ayaq bilyardı, Zorba futbol, Maket qapıya qol vuruşu, şən klounlarla futbol oyunu təşkil edilib.

Tədbirin rəsmi hissəsində Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Ramil Hacı çıxış edərək bildirib ki, ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi idman siyasəti Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Muxtar respublikada da idmanın inkişafı sahəsində mühüm işlər görülür, gənclərin fiziki və mənəvi hazırlığı, onların asudə vaxtlarının səmərəli təşkili diqqət mərkəzində saxlanılır.

“2020-2025-ci illər üçün Naxçıvan Muxtar Respublikasında idmanın inkişafına dair Dövlət Proqramı”nın uğurlu nəticələri barədə danışan nazir qeyd edib ki, yaradılmış müasir idman infrastrukturu gənclərin idmana olan marağını artırıb, istedadlı idmançıların yetişməsi təmin olunub, bu da, öz növbəsində, muxtar respublikada beynəlxalq, ölkə və muxtar respublika səviyyəli idman yarışlarının keçirilməsinə şərait yaradıbdır.

Bildirilib ki, 55 illiyi qeyd edilən “Araz-Naxçıvan” komandası I divizionda qalib olub, Premyer Liqada çıxış edib, qonşu ölkələrdə müntəzəm olaraq təlim-məşq toplanışları keçirilibdir. Komandamız Region Liqasının yenicə başa çatan mövsümünü bürünc medalla tamamlayıbdır.

Muxtar respublikada 1244 nəfər yeniyetmə və gəncin aktiv şəkildə futbolla məşğul olduğunu və 17 stadion, 30 minifutbol meydançasının mövcud olduğunu, stadionlardan 10-nun əsaslı təmir olunaraq istifadəyə verildiyini xatırladan Ramil Hacı son dövrlər futbolun inkişafı istiqamətində icra olunan digər işlər barədə məlumat verib. Klubun 55

*Ardı 3-cü səhifədə*

illik yubileyinin əlamətdar gündə – 1 iyun – Uşaqları Beynəlxalq Müdafiə Günündə qeyd olunmasının böyük rəmzi əhəmiyyət kəsb etdiyini diqqətə çatdıran gənclər və idman naziri bu münasibətlə uşaqları təbrik edib, Naxçıvanda idmanın inkişafına göstərdiyi qayğıya görə Ali Məclisin Sədrinə idmançılar adından minnətdarlığını ifadə edib.

Qonaqları salamlayan Naxçıvan Futbol Federasiyasının sədri Vüqar Abbasov uşaqları 1 iyun – Uşaqları Beynəlxalq Müdafiə Günü münasibətilə təbrik edib. Bildirib ki, dövlət uşaq siyasəti ölkəmizdə prioritet məsələlərdən biridir. Ulu öndər tərəfindən yaradılan bu siyasət ölkə rəhbəri cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.



Naxçıvan Muxtar Respublikasında da idmana göstərilən diqqət və qayğıdan danışan Vüqar Abbasov qeyd edib ki, idmançılarımız çıxış etdikləri yarışlarda Azərbaycan bayrağını daim yüksəklərdə dalğalandırır, ölkəmizin idman ənənələrini layiqincə təmsil edirlər. Yaradılan şəraitə görə muxtar respublika rəhbərinə minnətdarlıq edən federasiya sədri "Araz-Naxçıvan"ı 55 illik yubileyi münasibətilə təbrik edib, komandanın veteran futbolçularına təşəkkürünü bildirib.

Çıxışlardan sonra Vətən uğrunda şəhid olmuş qəhrəmanların əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Sonra Naxçıvan Muxtar Respublikası Atletika Federasiyasının Bədii gimnastika bölməsinin "Pon-pon" qızlar qrupunun çıxışı, Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsi tələbələrinin ifasında "Tənzərə" yallısı maraqla qarşılanıb. Tamaşaçılara, eyni zamanda "Araz-Naxçıvan"ın tarixi, uğurları və tanınmış azərbaycanlı oyunçular haqqında məlumat verilib.



Sonra Vətən uğrunda şəhid olmuş qəhrəmanlarımızın övladlarına hədiyyələr verilib. Hədiyyələri Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin birinci müavini Azər Zeynalov və Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının sədri Seymur Talıbov təqdim ediblər.

Festivalda xüsusi qayğıya ehtiyacı olan uşaqlar da mükafatlandırılıb. Mükafatları Naxçıvan Muxtar Respublikası Boks Federasiyasının sədri Məhərrəm Talıbov, Naxçıvan Muxtar Respublikası Paralimpiya Federasiyasının sədri Nicat Babayev təqdim ediblər.



"Araz-Naxçıvan" Peşəkar Futbol Klubunun ilk baş məşqçisi olmuş Tofiq Axundovun həyat yoldaşı və qızına isə xüsusi hazırlanmış "3" və "55" nömrəli formalar təqdim olunub. Formaları Naxçıvan Futbol Federasiyasının sədri Vüqar Abbasov və Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının baş katibinin müavini Kamran Vəliyev təqdim edib.

Festivalda "Araz-Naxçıvan"ın veteran futbolçuları da mükafatlandırılıb. Mükafatları Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Mirsənani Seyidov təqdim edib.

Sonra "Araz-Naxçıvan"ın veteran və gənc komandaları arasında yoldaşlıq görüşü keçirilib.

Festivalda hər uşağa bir top hədiyyə edilib. Bol hədiyyəli oyunlar, əyləncəli şoular, məşhur müğənnilərin çıxışları ilə yaddaqalan "Bir uşaq-bir top" festivalı Xalq artisti Aygün Kazımovanın konserti ilə davam edib.




**Xəbərlər şöbəsi**

## "Heydər Əliyev-2022" birgə döyüş atışlı taktiki təlimi uğurla başa çatıb




*Qardaş Türkiyə Respublikasının Qars şəhərində keçirilən "Heydər Əliyev-2022" birgə döyüş atışlı taktiki təlimi başa çatıb. Təlimdə iştirak edən Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçuları bütün döyüş tapşırıqlarını uğurla yerinə yetirərək yüksək nəticələr göstəriblər.*

Təlimə cəlb edilmiş hərbi qulluqçuların və texnikaların Qars şəhərinə yola salınması münasibətilə mərasim keçirilib. Mərasimdə çıxış edən Əlahiddə Ümumqoşun Ordu komandanın müavini, general-mayor Rəhim Cəfərov hər iki ölkə arasındakı sarsılmaz qardaşlıqdan və keçirilən birgə təlimlərin əhəmiyyətindən danışıb.

Çıxışların ardından təlimə cəlb edilmiş bölmələr Naxçıvan şəhərindən Sədərək sərhəd-keçid məntəqəsinə doğru yola düşüblər. "Ümid" körpüsü üzərində Türkiyə və Azərbaycan respublikalarının Dövlət himnləri səsləndirildikdən sonra iki qardaş ölkənin Dövlət bayraqlarının dəyişmə mərasimi keçirilib, sonra Qars şəhəri istiqamətində hərəkət davam etdirilib.

"Heydər Əliyev-2022" birgə döyüş atışlı taktiki təlimi izləmək üçün Əlahiddə Ümumqoşun Ordu komandanı, general-polkovnik Kərəm Mustafayev Qars şəhərində səfərdə olub. Türkiyə Respublikasının



3-cü Ordu Komandanı, korgeneral Yavuz Türkgənci nümayəndə heyətimiz ilə görüşüb. Səfər çərçivəsində böyük öndər Mustafa Kamal Atatürkün və ümummilli lider Heydər Əliyevin Qars şəhərində ucalan abidələri ziyarət edilib.

Təlimin ssenarisinə əsasən artilleriya bölmələri müxtəlif döyüş tapşırıqlarını praktik icra ediblər. Hücum və yerdəyişmə edən qoşunların maneəsiz hərəkəti mühəndis bölmələri tərəfindən təmin edilib. Tankların, piyadaların döyüş maşınlarının və tank əleyhinə bölmələrin heyətləri helikopterlərin dəstəyi ilə şərti düşmən mövqelərini tam dəqiqliklə məhv ediblər. Təlimə cəlb olunmuş snayperlər müxtəlif məsafədən praktik atışlar yerinə yetiriblər. Azərbaycan və Türkiyə respublikalarının Dövlət bayraqlarının açıldığı paraşüt atlayışı ilə təlimə yekun vurulub.

Sonda təlimdə fərqlənən hərbi qulluqçular qiymətli hədiyyələrlə mükafatlandırılıb və şəxsi heyətlə xatirə şəkli çəkdirilib.

"Heydər Əliyev-2022" birgə döyüş atışlı taktiki təlimdə iştirak edən hərbi qulluqçularımız Araz çayı üzərindəki "Ümid" körpüsündən keçərək xidmət yerlərinə qayıdıblar.

**Kənan CƏLİLOV**

## 1 iyun – Uşaqları Beynəlxalq Müdafiə Günü qeyd olunub

*Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrında 1 iyun – Uşaqları Beynəlxalq Müdafiə Günü münasibətilə tədbir keçirilib.*

Tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Emin Məmmədov bildirib ki, ölkəmizdə dövlət uşaq siyasətinin formalaşması və inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Uşaqların hərtərəfli şəxsiyyət və layiqli vətəndaş olaraq formalaşmaları müstəqil Azərbaycan Respublikasının dövlət uşaq siyasətinin aparıcı istiqamətini təşkil edir. Bu gün ölkəmizdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə dövlət uşaq siyasəti uğurla həyata keçirilir. Uşaq və yeniyetmələrin milli-mənəvi dəyərlərimizə, tarixi köklərimizə bağlı, vətənpərvər ruhda böyüdülməsi qarşıya qoyulmuş əsas vəzifələrdəndir. Məhz həyata keçirilən məqsədyönlü siyasətin nəticəsidir ki, bu gün ölkəmizdə və onun Naxçıvan Muxtar Respublikasında yüksək intellektual səviyyəyə, milli düşüncəyə malik gələcək nəsil formalaşır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı ilə uşaqların təhsili, istedadlarının üzə çıxarılması, intellektual və mənəvi inkişafı, asudə vaxtının və tərbiyəsinin düzgün təşkili, cəmiyyətin ictimai-mədəni həyatındakı iştirakını təmin etmək məqsədilə mühüm tədbirlər həyata keçirilir.



Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova bildirib ki, muxtar respublikada uşaqlar hərtərəfli dövlət qayğısı ilə əhatə olunub. Bu gün muxtar respublika əhalisinin 36 faizi və ya 165 min 740 nəfəri uşaqdır. Bunlardan 1909-u sağlamlıq imkanları məhdud, 65-i hər iki valideyni vəfat etmiş və valideyn himayəsindən məhrum, 55-i şəhid uşağıdır. Sağlamlıq imkanları məhdud uşaqların sosial müdafiəsi, cəmiyyətə fəal inteqrasiyası məqsədilə bu gün muxtar respublikada müvafiq tədbirlər həyata keçirilir. Çıxışda "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı"nın əhəmiyyəti və icrası ilə bağlı görülən işlər barədə də məlumat verilib.

Qeyd olunub ki, muxtar respublikada uşaq hüquqlarının qorunması istiqamətində görülən ardıcıl və məqsədyönlü tədbirlərin nəticəsidir ki, dövlət uşaq müəssisələrində valideynləri tərəfindən tərk edilən, erkən nikaha və uşaq əməyinə cəlb olunan, təhsildən yayınan, hüquq pozan, cinayət məsuliyyətinə cəlb olunan uşaqlara rast gəlinmir.

Çıxış edənlər muxtar respublikada uşaqlara göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildirib, əlamətdar gün münasibətilə uşaqları təbrik ediblər.

Naxçıvan şəhəri üzrə təhsil sahəsində ən yüksək göstəriciyə nail olan Naxçıvan şəhər 9 nömrəli tam orta məktəbin şagirdi, "Sabahın tədqiqatçıları" layihəsinin qalibi Səmayə Rəsulova yaradılan şəraitə görə dövlətimizə minnətdarlıq edib.

2021-2022-ci tədris ilində Naxçıvan şəhərində təhsil, incəsənət və idman sahəsində fərqlənən 20 istedadlı uşağa Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən fəxri fərmanlar və hədiyyələr təqdim olunub.

Sonra "Müstəqillik illərindən bəhrələnən Naxçıvan uşaqları" adlı filmə baxış olub.

Tədbirin bədii hissəsində muxtar respublikada fəaliyyət göstərən uşaq musiqi məktəblərinin, Naxçıvan Dövlət Uşaq Filarmoniyasının mahnı və rəqs ansamblının, məktəbəqədər və məktəbdənkənar təhsil müəssisələrinin, "Gənc Heydərçilər" dərnəyinin və Naxçıvan şəhər 11 nömrəli uşaq bağçasının balaca fidanlarının hazırladığı mahnı və rəqs nömrələri nümayiş etdirilib.

Tədbir çərçivəsində istedadlı uşaqların rəsm və əl işlərindən, həmçinin uşaq ədəbiyyatından ibarət sərgiyə baxış olub, uşaqlara hədiyyələr təqdim edilib.

* * *

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, Gənclər Fondunun və "Cahan Holdinq" Kommersiya Şirkətlər İttifaqının birgə təşkilatçılığı ilə 1 iyun – Uşaqları Beynəlxalq Müdafiə Günü münasibətilə xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün əyləncəli tədbir təşkil olunub. Tədbirdə çıxış edən əmək və əhalinin sosial müdafiəsi naziri Nicat Babayev bildirib ki, muxtar respublikada sosial təminat tədbirləri ilə yanaşı, sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyası istiqamətində də zəruri şərait yaradılıb, bu sahədə yeniliklərin tətbiqi diqqət mərkəzində saxlanılıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin yüksək diqqət və qayğısı sayəsində bu sahədə ardıcıl Dövlət proqramları təsdiq edilib və ötən müddət ərzində uğurla icra olunub.



Nazir əlavə edib ki, son dövrlərdə şəhid və qazi övladlarının iştirakı ilə bir sıra tədbirlər və istirahət düşərgələri təşkil olunub. İl ərzində keçirilmiş 10-dan artıq tədbirdə 300-ə yaxın uşağın iştirakı təmin edilib. Bununla yanaşı, sağlamlıq imkanları məhdud istedadlı şəxslərin əmək qabiliyyətinin stimullaşdırılması məqsədilə bu qəbildən olan 27 müəllifin 500-ə yaxın əl işinin sərgi-satışı da təşkil olunub. Nazir sosial qayğıya ehtiyacı olan uşaqlara göstərilən yüksək diqqət və qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə dərin minnətdarlığını bildirib.

Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyev uşaqları təbrik edərək müstəqil Azərbaycanda, o cümlədən muxtar respublikada uşaqların diqqət və qayğı ilə əhatə olunmasından danışıb.

Çay süfrəsi ətrafında keçirilən tədbirin bədii hissəsində sağlamlıq imkanları məhdud istedadlı uşaqlardan ibarət "Ümid" musiqi qrupunun və yaradıcılıq müsabiqələrində yüksək nəticələr göstərmiş sağlamlıq imkanları məhdud istedadlı uşaqların ifasında müxtəlif yaradıcılıq nümunələri nümayiş etdirilib. Tədbir müxtəlif əyləncəli oyunlarla və "Əyləncə Adası"nda gəzinti ilə davam etdirilib.

Qeyd edək ki, sonda uşaqlara sosial könüllülərin iştirakı ilə hədiyyələr də təqdim olunub.

**Xəbərlər şöbəsi**

## Naxçıvan Dövlət Universitetinin rektorunun rəhbərlik etdiyi nümayəndə heyəti Yaponiyada nüfuzlu Asiya Universitetlərinin Sammitində iştirak edir



*Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayevin rəhbərlik etdiyi nümayəndə heyəti Yaponiyanın Naqoya şəhərində nüfuzlu Asiya Universitetlərinin Sammitində iştirak edir. Mayın 31-də Böyük Britaniyanın "Times Higher Education" təşkilatı tərəfindən təşkil edilən sammit iyunun 3-dək davam edəcək.*

Sammitin açılış günü iştirakçılar əvvəlcə Fujita Universitetində müxtəlif şirkətlər tərəfindən təşkil edilən sərgi ilə tanış olublar. Burada həm Yaponiyanın, həm də ətraf ölkələrin yüksək texnologiyalar istehsalı ilə məşğul olan şirkətlərinin məhsulları iştirakçılara təqdim olunur.

Qeyd edək ki, Naxçıvan Dövlət Universitetində başlayan yeni missiya beynəlxalq əlaqələrin daha da inkişaf etdirilməsinə, tədris prosesinə və elmi-tədqiqat işlərinin təşkilinə, habelə idarəetmədə dünya təcrübəsindən yaradıcı şəkildə faydalanmağa imkan yaradır. Son illər beynəlxalq əlaqələrin genişləndirilməsi sahəsində görülən tədbirlərin nəticəsidir ki, Naxçıvan Dövlət Universiteti bu gün nəinki ölkə miqyasında, hətta dünyada sayılıb-seçilən universitetlər sırasında xüsusi yer tutur.

Beynəlxalq elmi tərəfdaşlıq sahəsində dünyanın aparıcı keyfiyyət və reytinq şirkəti olan "Times Higher Education" ilə qurulan əlaqələr 2021-ci ildə Naxçıvan Dövlət Universitetinin dünya universitetləri sırasında öz adını tanıtması ilə nəticələnib. Universitet 2022-ci ildə isə "Times Higher Education" təşkilatının "İmpact Sıralamasında" xüsusi yer alıb. Bu ali təhsil ocağı müxtəlif beynəlxalq təşkilat və universitetlərin tədbirlərində uğurla təmsil olunur. Onlardan biri də "Times Higher Education" keyfiyyət və reytinq şirkətinin təşkil etdiyi sammitdir.

"Times Higher Education" şirkətinin Yaponiyanın "Fujita Health Universiteti" ilə əməkdaşlıq çərçivəsində "Gələcəyə baxmaq, akademik istedad yaratmaq" devizi altında Asiya Universitetləri Sammitində Naxçıvan Dövlət Universiteti ilə yanaşı, Asiya regionunun bir çox nüfuzlu şirkətləri, universitetləri və eləcə də möhtərəm şəxsləri iştirak edir. Yaponiyanın İmperator ailəsinin üzvü, Əlahəzrət Mikasa Şahzadəsi Tomohitonun iştirakı bu sammitin əhəmiyyətinin ən vacib göstəricisi hesab edilə bilər. Sammitə, ümumilikdə, 60 ölkənin nüfuzlu universitetlərinin rəhbər şəxsləri qatılıb.

Sammitin təhsil və elmi tədqiqatların təşkili ilə bağlı beynəlxalq əhəmiyyətini yüksək qiymətləndirən Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev AZƏRTAC-ın Yaponiyadakı xüsusi müxbirinə müsahibəsində bildirib ki, tədbirin məqsədi Asiyanın qabaqcıl ali təhsil müəssisələrinin bir araya gətirilməsi və elmi araşdırmaların istiqamətləri ilə bağlı geniş müzakirələrin aparılmasıdır: "Sammit çərçivəsində təşkil ediləcək plenar iclaslarda, simpozium və konfranslarda iştirak, aparılacaq diskussiyalara qoşulmaq imkanı yaratdıqlarına görə təşkilatçılara minnətdarıq. Azərbaycanda ali təhsilin beynəlxalq rəqabətədavamlılığının artırılması ilə əlaqədar Prezident cənab İlham Əliyevin imzaladığı müvafiq Sərəncam var və bu mühüm sənəd bütün universitetlərin, o cümlədən Naxçıvan Dövlət Universitetinin qarşısında çox ciddi vəzifələr qoyur. Məhz bunun nəticəsidir ki, ölkəmizdə fəaliyyət göstərən ali təhsil məktəbləri təhsil sahəsində nüfuzlu beynəlxalq reytinq təşkilatları ilə əməkdaşlığa xüsusi önəm verirlər. Universitetimizdə də bu istiqamətdə ardıcıl və məqsədyönlü iş aparılır. "Times Higher Education" təşkilatı ilə qurulmuş əməkdaşlıq nəticəsində universitet son iki ildə reytinq qiymətləndirməsində xüsusi uğurlar qazanıb. Keçirilən sammit həmin əməkdaşlığın yeni üfüqlərini müəyyənləşdirəcək və təkcə həmin təşkilatla deyil, həmçinin Asiya regionun nüfuzlu ali təhsil mərkəzləri ilə əlaqələrimizin inkişafına mühüm təsir göstərəcək. Bununla yanaşı, regionun bütün dünyada tanınmış məşhur şirkətlərinin bu sammitə qatılması bizim onlarla da birbaşa əməkdaşlıq əlaqələri qurmağımıza şərait yaradacaq".



Sammitin təntənəli açılış mərasimində çıxış edən Fujita Universitetinin rektoru Yukio Yuzava, İmperator ailəsinin üzvü, şahzadə Tomohito, Aiçi prefekturasının qubernatoru Hideaki Omura və "Times Higher Education" təşkilatının Asiya-Sakit okean regionu üzrə prezidenti Simone Dilena iştirakçıları salamlayaraq onlara bu beynəlxalq tədbirdə aparılacaq müzakirələrdə uğurlar arzulayıblar.

Açılış mərasimindən sonra sammit işini plenar iclaslarla davam etdirib.

Naxçıvan Dövlət Universitetinin nümayəndə heyətini Naqoyada salamlamaqdan məmnun olduğunu bildirən Fujita Universitetinin rektoru Yukio Yuzava AZƏRTAC-ın Yaponiyadakı xüsusi müxbirinə deyib: "Naxçıvan Dövlət Universitetinin rektoruna və əməkdaşlarına Yaponiyaya gələrək "Times Higher Education" təşkilatının zirvə görüşünə qatıldıqlarına görə səmimi minnətdarlığımı bildirirəm. Qeyd etmək istərdim ki, bu universitet Qafqaz regionundan bizim sammitə qatılan ilk ali təhsil müəssisəsidir. Azərbaycandan gəlmiş qonaqları universitetimizdə salamlamaqdan çox məmnunam.

Ümid edirəm ki, zirvə görüşü azərbaycanlı qonaqlarımızın xoşuna gəlib və biz artıq bir-birimizlə xoş ünsiyyət qurmağa nail olmuşuq. Həmçinin sammit həm də tədbirin iştirakçısı olan digər universitetlər və şirkətlərlə əməkdaşlıq əlaqələri qurmağa şərait yaradıb.

Biz Naxçıvan Dövlət Universitetinin rektoru ilə ilkin danışıqlar apardıq və qurulacaq qarşılıqlı əməkdaşlığın hər iki tərəf üçün faydalı olacağını düşünürəm. Biz yalnız birlikdə insan resurslarını inkişaf etdirməyin yollarını tapa bilərik. Belə ki, iki universitet arasında tələbə və müəllim heyətinin mübadiləsinin təşkili hər iki tərəfin inkişafına mühüm təsir göstərə bilər. Bunun üçün əlaqələrimizi və dostluğumuzu möhkəmləndirməliyik. Düşünürəm ki, bu zirvə görüşü aramızdakı əlaqələri yaratmaq və inkişaf etdirmək üçün çox yaxşı şansdır".

Qeyd edək ki, iyunun 3-də işini başa vuracaq sammit çərçivəsində ümumi müzakirələrlə yanaşı, qarşılıqlı əməkdaşlıq, təcrübə və kadr mübadiləsinin təşkili məqsədilə ikitərəfli danışıqların aparılması da nəzərdə tutulur.

**AZƏRTAC**



*2 iyun Mülki Aviasiya İşçilərinin Peşə Bayramı Günüdür*

## Naxçıvan Beynəlxalq Hava Limanında sərnişinlərə nümunəvi xidmət göstərilir

*Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 may tarixli Sərəncamına əsasən iyunun 2-si hər il ölkəmizdə "Mülki Aviasiya İşçilərinin Peşə Bayramı Günü" kimi qeyd edilir.*

Ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illərdə milli aviasiyanın inkişafı sahəsində böyük uğurlar qazanılmışdır. Ötən əsrin 70-ci illərində respublikanın 11 rayonunda yeni hava limanları tikilmişdir. 1976-1980-ci illər üçün Azərbaycanda Mülki Aviasiyanın inkişaf proqramı hazırlanmış, bölgələrdə reaktiv təyyarələrin qəbulu üçün uçuş-enmə zolağı salınmış, hava limanları müasir radio və işıq texnikası vasitəsilə təchiz edilmişdir. Mülki aviasiyanın ölkə həyatındakı rolunu yüksək qiymətləndirən ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə müstəqillik dövründə bu sahədə daha geniş tədbirlər görülmüşdür.

Muxtar respublikanın nəqliyyat problemlərinin həllinə ümummilli liderimiz xüsusi diqqət yetirmiş, 1976-cı ildə Naxçıvanda hava limanı tikilib istifadəyə verilmişdi. Ötən əsrin 90-cı illərində Naxçıvanı Azərbaycanın əsas hissəsi ilə bağlayan bütün nəqliyyat-kommunikasiya əlaqələri kəsiləndən, muxtar respublika Ermənistan tərəfindən blokadaya salınandan sonra sərnişin və yük daşınması kiçiktutumlu təyyarələri qəbul etmək imkanı olan bu hava limanı vasitəsilə həyata keçirilirdi. Bu dövrdən etibarən Azərbaycanın digər bölgələri ilə əlaqənin yeganə mümkün forması olan hava yolu yerli əhali üçün həyati əhəmiyyət daşımağa başladı. 1992-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində çalışan ulu öndər limanın uçuş-enmə zolağının yenidən qurulması təşəbbüsünü irəli sürmüş və bu iş qısa müddətdə həyata keçirilmişdir. Sonrakı illərdə hava nəqliyyat növünə tələbatın artması Naxçıvanda daha müasir hava limanının tikilməsini zərurətə çevirmişdi. Bununla əlaqədar 2002-ci il avqustun 11-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində müşavirə olmuşdur. 2002-ci il oktyabr ayının 1-də inşasına başlanan limanda tikinti-quraşdırma işləri ən müasir tələblər səviyyəsində həyata keçirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə mövcud hava limanlarının maddi-texniki bazasının gücləndirilməsi, aerovağzalların fəaliyyətinin müasir səviyyəyə çatdırılması sahəsində görülən işlər ardıcıl və sistemli xarakter almış, inkişaf proqramları qəbul olunaraq həyata keçirilmişdir. Dövlət başçısı Naxçıvan Muxtar Respublikasında da mülki aviasiya sisteminin müasirləşdirilməsini diqqətdə saxlamış, 2004-cü ilin aprel ayında hava limanına Beynəlxalq Hava Limanı statusu verilmişdir. Son illər həyata keçirilən kompleks quruculuq tədbirləri Naxçıvan Beynəlxalq Hava Limanını yeni inkişaf mərhələsinə çıxarmışdır. Ölkə Prezidentinin iştirakı ilə 2014-cü ildə hava limanının yeni inzibati binası, 2015-ci ildə isə "Şərq Terminalı" istifadəyə verilmişdir.

2016-cı ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun iştirakı ilə hava limanının "Qərb Terminalı" istifadəyə verilmişdir. Həm "Şərq", həm də "Qərb" terminallarının yenidən qurulması zamanı Beynəlxalq Mülki Aviasiya təşkilatının, Beynəlxalq Mülki Nəqliyyat Assosiasiyasının tələb və tövsiyələrinə cavab verən, Azərbaycan Respublikasında istifadəsinə icazə verilmiş ən müasir texnologiyalardan, uçuşların və aviasiya təhlükəsizliyini təmin edən avadanlıqlardan istifadə olunmuşdur. Hava limanında ilk dəfə teleskopik traplar qurulmuşdur. Aerovağzal kompleksinin yenidən qurulması illik sərnişin dövriyyəsinin və yükdaşımaların artırılmasında mühüm rol oynamış, hava limanının saatlıq sərnişin dövriyyəsi 300 nəfərdən 600 nəfərə çatdırılmışdır. Hər iki terminalda beynəlxalq səviyyəli uçuşların həyata keçirilməsi üçün sərhəd nəzarəti, tranzit sərnişinlər üçün zal, Aviasiya təhlükəsizliyi nəzarəti sahələri fəaliyyət göstərir.

Muxtar respublikanın sosial-iqtisadi inkişafı, turizm imkanlarının genişlənməsi hava nəqliyyatına tələbatı da artırmışdır. Hava limanında əhaliyə və turistlərə hərtərəfli xidmət göstərmək üçün lazımlı şərait yaradılmış, infrastruktur təkmilləşdirilmişdir. Həyata keçirilən işlərin tərkib hissəsi olaraq Naxçıvan, Ordubad, Şərur və Şahbuz şəhərlərində müasir aviakassa binaları tikilib istifadəyə verilmiş, sərnişinlərin rahatlığı və xidmətin səviyyəsi yüksəldilmişdir. Xidməti personalın bilik səviyyəsinin yüksəldilməsi, müasir texnoloji avadanlıqlardan istifadə qaydaları və onların tətbiq edilməsi üçün də tədbirlər görülmüş, əməkdaşlar Azərbaycanda və xarici ölkələrdə təşkil olunmuş ixtisasartırma kurslarında iştirak edərək yerli və beynəlxalq dərəcəli sertifikatlarla təmin olunmuşlar.

Beynəlxalq Mülki Aviasiya Təşkilatının qəbul etdiyi qərara əsasən 2019-cu il avqust ayının 15-dən Naxçıvan Muxtar Respublikasına Türkiyə üzərindən birbaşa hava dəhlizi açılmışdır. Yeni hava dəhlizinin açılması muxtar respublika üçün bir çox cəhətdən əhəmiyyətlidir. İlk növbədə, Naxçıvan Muxtar Respublikasının bu hava dəhlizi vasitəsilə Türkiyə üzərindən beynəlxalq dəhlizlərə çıxışı təmin edilir. Türkiyə üzərindən yeni açılan hava dəhlizi gələcəkdə yeni beynəlxalq reyslərin açılmasına şərait yaradır.

2021-ci ildə ölkə başçısının iştirakı ilə açılışı olan Naxçıvan Beynəlxalq Hava Limanının yeni uçuş-enmə zolağının ümumi uzunluğu 3300, eni 60 metrdir. Yükgötürmə qabiliyyəti 400 ton olan zolağın salınması zamanı yerli iqlim şəraiti və beynəlxalq tələblər nəzərə alınmışdır. Uçuş-enmə zolağının naviqasiya və işıqlandırma sistemləri müasir səviyyədə qurulmuşdur. Ərazidə peyk siqnallarını tənzimləyən yerüstü naviqasiya sistemləri, çətin hava şəraitində təyyarələrin təhlükəsiz qəbulu, uçuşu üçün avtomatlaşdırılmış meteoroloji radiolokator quraşdırılmış, radiorabitə vasitələri tamamilə yenilənmişdir. Bu da yerli və beynəlxalq dəhlizlər üçün hava şəraiti haqqında məlumatların operativ və dəqiq ötürülməsinə imkan verir. Bu uçuş-enmə zolağı ağırtonlu yük təyyarələrinin Naxçıvan Beynəlxalq Hava Limanına qəbulunu təmin edir, həmçinin sərnişin dövriyyəsinin artmasına da müsbət təsir göstərir. Hazırda hava limanında saatlıq sərnişin dövriyyəsi 600 nəfərdən artıqdır.

Ötən il Naxçıvan Beynəlxalq Hava Limanı Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin tabeliyinə verilmiş, Naxçıvan Beynəlxalq Hava Limanının yeni əsasnaməsi təsdiq edilmişdir. Bundan sonra hava limanı yeni əsaslarla fəaliyyət göstərəcəkdir.

Naxçıvan Beynəlxalq Hava Limanında yerüstü xidmət dünya standartlarına cavab verir. Beynəlxalq normaların tələblərinə uyğun fəaliyyət göstərən yük terminalının mövcud olması hava limanının əhəmiyyətini xeyli artırır. Hazırda Naxçıvan Beynəlxalq Hava Limanından Bakı, Gəncə, Moskva və İstanbul şəhərlərinə, ümumilikdə, 4 istiqamətdə uçuşlar həyata keçirilir. Hava limanı il ərzində 320 mindən çox sərnişinə xidmət edir. Uçuşlar dünyada istismar olunan müasir tipli hava gəmiləri vasitəsilə yerinə yetirilir. Hava nəqliyyatının inkişafı və hava daşımalarının müasir tələblər səviyyəsində qurulması üzrə ardıcıl tədbirlərin görülməsi, uçuşların təhlükəsizliyini artırmaq məqsədilə alınmış yeni maşın və mexanizmlərin yüksək texniki göstəricilərə malik olması sərnişinlərə nümunəvi xidmət göstərməyə imkan verir. Gələcəkdə də uçuşların əhatə dairəsinin genişləndirilməsi üzrə xüsusi planların işlənib hazırlanması nəzərdə tutulmuşdur.

Sərnişin rahatlığı üçün 2021-ci ildə "Aeroport taksi" xidməti yaradılmışdır. Həmçinin hava limanı ərazisində "Çinar Kafe" fəaliyyət göstərir. Əlverişsiz hava şəraitində sərnişinlərin rahatlığını təmin etmək üçün "Qərb" və "Şərq" terminallarının qarşısında talvarın tikintisi artıq yekunlaşmaq üzrədir. Hava nəqliyyatı sisteminin inkişafına xüsusi diqqət göstərən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"Muxtar respublikada hava nəqliyyatının inkişafı sahəsində həyata keçirilən tədbirlərin əsas məqsədi sərnişinlərin rahatlığını təmin etməkdir".***

*Naxçıvan Beynəlxalq Hava Limanının kollektivi bundan sonra da yaradılan şəraitdən səmərəli istifadə edəcək, muxtar respublika əhalisinə və turistlərə nümunəvi xidmət göstərəcəklər.*

**Naxçıvan Beynəlxalq Hava Limanı**

***İtmişdir***

Hüseynov Əli Allahyar oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Güntac Şahməmmədli

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 481